**5306.01-”Texnoloji innovasiyalar iqtisadiyyatı”**

## 1. ÜMUMİ QAYDALAR

### 1.1. Proqram haqqında ümumi məlumat

5306.01-”Texnoloji innovasiyalar iqtisadiyyatı” ixtisası üzrə fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul imtahanının proqramı bakalavriat və magistratura səviyyəsində “İqtisadiyyata giriş”, “Mikroiqtisadiyyat”, “Makroiqtisadiyyat”, “İnnovasiya menejmenti”, “Strateji menecment” fənnlərinin proqramları əsasında tərtib edilmişdir.

Proqram Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali təhsilin doktorantura səviyyəsi uzrə ixtisasların Təsnifatı" haqqında 15 mart 2012-ci il tarixli, 65 nömrəli qərarı əsasında təsdiq edilmiş 5306.01-”Texnoloji innovasiyalar iqtisadiyyatı” ixtisasının pasportuna uyğun tərtib edilmişdir.

### 1.2. Fəlsəfə doktoru proqramı üzrə qəbul imtahanının keçirilməsinin məqsədi

5306.01-”Texnoloji innovasiyalar iqtisadiyyatı” ixtisasından fəlsəfə doktoru proqramı üzrə qəbul imtahanı həmin ixtisas üzrə doktoranturaya qəbul olmaq istəyən iddiaçının müstəqil öyrənmək, müasir elmi nailiyyətləri tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı yeni ideyalar irəli sürmək, iqtisadi münasibətlərin tənzimlənməsində əsas problemləri seçmək, onların həlli yollarını və üsullarını modelləşdirmək kimi istiqamətdə olan bilik səviyyəsini qiymətləndirmək məqsədi ilə aparılır.

### 1.3. İmtahan verənin bilik səviyyəsinə qoyulan tələblər

İmtahan verən 5306.01-”Texnoloji innovasiyalar iqtisadiyyatı” ixtisasının pasportuna uyğun olaraq aşağıdakı sahələrdə elmi-tədqiqatlar aparmaq üçün lazımi biliklərə malik olmalıdır:

- innovasiya sahəsində elmi-tədqiqat fəaliyyətinin əsas metodları və prinsipləri;
- innovativ inkişaf səviyyəsinin qiymətləndirmələrinə aid tədqiqatların metodoloji xarakteristikaları;
- innovasiyanın nəzəri əsasları, tədqiqat məsələlərinin qoyuluşu üsulları;
- innovativ iqtisadi inkişafın qanunauyğunluqları;
- innovativ inkişaf modelləri və onların xüsusiyyətləri;
- innovasiyayönümlü iqtisadi inkişafın xüsusiyyətləri;

- müasir nəzəriyyələr, məktəblər, elmi axtarışın metodologiyası;

- iqtisadi nəzəriyyənin inkişafının əsas problemləri, onların müxtəlifliyini və cəmiyyətdə baş verən proseslərlə qarşılıqlı əlaqəni görmək.

## 2. PROQRAMIN MƏZMUNU

### 2.1. İnnovasiya nəzəriyyəsinin və metodologiyasının əsasları

İnnovatika nəzəriyyəsinin inkişafı və onun müasir konsepsiyaları. Böyük konyunktur tsiklləri. İşgüzar tsikllər. Texnoloji uklad və onun həyat tsikli. Yeni məhsullar, yeni proseslər. İntellektual məhsul. İntellektual mülkiyyət. Məhsulun və texnologiyanın həyat tsiklləri. Elm, texnologiya, iqtisadiyyat və təhsil innovasiya fəaliyyəti sisteminin komponentləri kimi.

### 2.2. İnnovasiya prosesinin mərhələləri, maliyyələşmə mənbələri və strukturu

İnnovasiya prosesinin əsas mərhələləri, axtarış xarakterli ETİ, tətbiqi ETİ, təcrübi-konsruktor və layihə-konstruktor işləri, yeni məhsulun istehsalının mənimsənilməsi və innovasiyaların kommersiyalaşdırılması. Maliyyələşmə mənbələri kimi dövlət büdcəsi, elmi-texniki proqramlar, innovasiya fondları, sifarişçilərin və təşkilatların vəsaitləri, qiymətli kağızların emissiyası və bank kreditləri. İnnovasiya prosesinin inkişafına təsir edən amillər. İnnovasiya fəaliyyətinin infrastrukturu.

### 2.3. İnnovasiya fəaliyyətinin təşkilati formaları

İnnovasiya fəaliyyətinin təşkilati formalarının kompleksi. İnnovasiya fəaliyyətində mütəxəssislərin rolu. Şirkətlərdə innovasiya bölmələrinin formalaşması. İnnovasiya proseslərinin firmadaxili formaları. Kiçik innovasiya sahibkarlığının formaları. İnnovasiya proseslərində firmalararası elmi-texniki kooperasiya. Alyanslar, birgə müəssisələr və konsorsiumlar. Regional elmi-texniki mərkəzlərin və maliyyə-sənaye qruplarının innovasiya fəaliyyəti. Parklar və texnopolislər. İnnovasiyaların yaradılmasında və diffuziyasında onların rolu.

### 2.4. Dövlətin innovasiya siyasətinin məqsədi, vəzifələri və istiqamətləri

Dövlətin innovasiya siyasətinin əsas məqsədləri. İnnovasiya sferasında dövlət orqanlarının əsas funksiyaları. Dövlətin innovasiya siyasətinin əsas prinsipləri. Müasir şəraitdə innovasiya fəaliyyətinin normativ-hüquqi tənzimlənməsi. Dövlətin innovasiya siyasətinin iki əsas modeli. Dünya ölkələrində dövlət innovasiya siyasətinin əsas istiqamətləri. İnnovasiya strategiyası və onun tipləri. İnnovasiya strategiyasının reallaşma şərtləri.

### 2.5. İnnovasiya fəaliyyətinin stimullaşdırılmasıüsulları və saxlanılması mexanizmi

Dövlət səviyyəsində innovasiya fəaliyyətinin stimullaşdırılması üsulları. Elmi-tədqiqat və sınaq-layihə işlərini dövlətin birbaşa stimullaşdırması. Elmin dolayı yolla dövlət tərəfindən stimullaşdırılması. Dövlət müqaviləsi, qrant, kooperativ razılaşması. İnnovasiya fəaliyyətində dövlətlə xüsusi sektorun əməkdaşlığı. İnnovasiya fəaliyyətinin saxlanılması mexanizmində sahibkarların innovasiya potensialı və stimulları. İnnovasiya layihəsi ilə

məşğul olma imkanları. Sahibkarların innovasiya yolunda məhdudiyyətləri. İnnovasiya fəaliyyətinin saxlanılması mexanizmində dövlətin strateji-innovasiya funksiyası.

**2.6. Milli innovasiya sistemi**

Milli innovasiya sisteminin mahiyyəti, onun formalaşması və inkişafı haqqında fikirlər. Milli innovasiya sisteminin obyektiv iqtisadi inkişaf qanunauyğunluqları. Milli innovasiya sisteminin əsas komponentləri. Milli innovasiya sisteminin strateji məqsədləri və vəzifələri, strukturu, funksiyaları, altsistemləri, regional innovasiya tərkib hissələri.

**2.7. Regionda sosial-iqtisadi problemlərin həllində innovasiyalar**

Regionda sosial-iqtisadi problemlərin innovasiya tipli həlli. Regionun innovasiya strategiyasının (konsepsiyasının) işlənməsi. Regional innovasiya inkişafı proqramı. Maliyyə problemlərinin həlli. Kadrların seçilməsi və hazırlanması. Tədbirlər kompleksinin reallaşdırılmasının monitorinqi. Regional innovasiya sistemləri konsepsiyasının müddəaları. Regional innovasiyanın inkişafının qabaqlayıcı konsepsiyasının məqsədi. Regional innovasiya siyasətinə təsir mexanizmləri. Qabaqlayıcı innovasiya yolunda əsas maneələr. MDB və digər xarici ölkələrin təcrübəsi.

**2.8. Regional innovasiya siyasətinin məqsədi, vəzifələri və prinsipləri**

Regional innovasiya siyasətinin məqsədlərinin seçilməsi meyarları. Regional innovasiya siyasətinin vəzifələri. Regional innovasiya siyasətinin konseptual müddəaları və funksiyaları. Regional innovasiya siyasətinin dövlət tənzimlənməsi metodları. Regional innovasiya siyasətinin prioritet prinsipləri. Regional innovasiya fəaliyyətinin stimullaşdırılması və idarə edilməsi üsulları. Regional innovasiya əsaslı sosial-iqtisadi mexanizmin yaradılması. Koordinasiya qurumunun əsas vəzifələri. Regional pilot layihələrin işlənməsi metodu. Ərazi-sənaye zonalarının yaradılması. Regional infrastrukturun inkişafına fərdi yanaşma.

**2.9. İnnovasiya proseslərinin idarə edilməsində innovasiya potensialı və onun qiymətləndirilməsinə yanaşmalar**

Təşkilatın innovasiya potensialı və daxili mühitinin strukturu. Müəssisənin innovasiya mühiti və onun makro və mikro tərkib hissələri. İnnovasiya potensialının qiymətləndirilməsinə yanaşmalar. Mühitin hərtərəfli təhlili. Mühitin diaqnostik təhlili. Təşkilatın innovasiya mühitinin SWOT təhlil metodu. Müəssisənin xarici mühiti və innovasiya şəraitinin qiymətləndirilməsi.

**2.10. İnnovasiya fəaliyyətinin layihə formasında idarə edilməsi**

İnnovasiya prosesi funksional və layihə idarəetmə obyekti kimi. Əməliyyat innovatikası. Strateji innovatika. İnnovasiyaların funksional idarə edilməsi. İnnovasiyaların layihə idarəetməsi. Strateji innovatikanın xüsusuiyyətləri layihə idarəetməsinin obyekti kimi. Məqsədli proqram idarəetmə. Layihə və məqsədli proqram idarəetmə üsullarının nisbəti. Layihənin lideri, konsepsiyası, komandası. Layihənin yerinə yetirilməsində strateji tərəfdaşlıq. Məsələlərin ranqlaşdırılması. Paralel iterasiya (çarpaz) metodu.

**2.11. Azərbaycanda innovasiya fəaliyyətinin gücləndirilməsi problemləri**

İnnovasiya sahəsində beynəlxalq təcrübə. Avropa İttifaqının innovasiya siyasəti. Onun həyata keçirilməsi mexanizmi. Avropa innovasiya cədvəli və innovasiya siyasəti tədbirlərinin informasiya bazası. Azərbaycanda və dünyada ETTKİ-ə çəkilən xərclər. Lissabon sammitində nəzərdə tutulmuş strategiyanın yeni mexanizmləri. Ölkələr üzrə ən yaxşı innovativ tədbirlərin seçilməsi meyarları. Vencur maliyyələşməsinin və texnoloji biznes-inkubatorların inkişafının dövlət səviyyəsində dəstəklənməsi. Azərbaycanın innovasiya siyasətində beynəlxalq təcrübədən istifadə edilməsi imkanları. Azərbaycanda innovasiya fəaliyyətinin gücləndirilməsi üçün zəruri tədbirlər.

### 2.12. İnnovasiya prosesində investisiya layihələrinin və proqramlarının qiymətləndirilməsi

İnnovasiya fəaliyyəti investisiyanın obyekti kimi. İnvestisiyaların mənbələri. İnnovasiyalar üçün kapital bazarı. İnvestisiya təklifi. İnnovasiya fəaliyyətində layihələrin və proqramların investisiya cəlbediciliyi. İnnovasiyalar üçün kapitalın qiyməti. İnnovasiyalara investisiya qoyuluşunun formaları. İnnovasiya layihələrinin maliyyələşdirilməsində mənfəət norması. İnnovasiya lizinqi, forfeytinqi, françayzinqi. İnvestisiya layihələrinin və proqramların gəlirliliyinin qiymətləndirilməsi. Alternativ investisiyalar.

### 2.13. Texnoparkların yaranma səbəbləri və modelləri

Texnoparklar və onların yaranma səbəbləri. Texnoparkların fəaliyyət forması. Onların maliyyələşmə mənbələri. Texnoparkların modelləri: Amerika, Yapon, Qarışıq model. Rusiyada texnoparkların elmi təşkilatların bazasında formalaşması. Tomsk Elmi-Texniki Parkı. Moskvoreçe Texnoparkı. Nijneqorod Dövlət Texniki Universitetinin Elmi-Texnoloji Parkı. “İnteqro”-Obnin Elmi-Texnoloji Parkı. Ulyanov Dövlət Universitetinin Yüksək Texnologiyalar Texnoparkı. Sənaye müəssisələri bazasında texnoparklar. Rusiyada Texniki Parklar yaradılarkən buraxılan səhvlər.

## ƏDƏBİYYAT


1. Hüseynova A.D. Elm və innovasiya fəaliyyəti: ölçmə və qiymətləndirmə, Bakı: TUNA, 2020, 374 s.
2. Hüseynova A.D. Azərbaycanda innovasiya potensialının təhlili, Bakı: Elm və təhsil, 2013, 385 s.
3. Qasımov F.M., Nəcəfov Z.M. , Əliyev T.N. Milli innovasiya sisteminin təşkili və idarə edilməsi: Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013, 678 s.
4. Qasımov F.H. Azərbaycanda dövlət innovasiya siyasəti // AMEA-nın Xəbərləri, Elm və İnnovasiya seriyası, 2010, №3(4), s. 7-14.
5. Qasımov F.H., Nəcəfov Z.M. Milli innovasiya sisteminin kompleks proqramı // AMEA Xəbərləri. Elm və innovasiya seriyası, 2011, № 1(5), s. 3-9.
6. Qasımov F.M., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı: Elm, 2009, 416 s.
7. Əliyev T.N., Babayev L.B. Regional innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı, "Elm və təhsil", 2013, 272 s.
8. Əliyev T.N., Nəcəfov Z.M. İnnovasiyanın təşkili və idarə edilməsi prosesi. Innovasiya bülleteni №1, Bakı – 2012, 4 s.
9. Tağıyev A.H. İnnovasiya (nəzəri və tətbiqi aspektdə), Bakı, "Təknur", 2018, 552 s.
10. Tağıyev A.H., Aslanzadə İ.A. İnnovasiya menecmenti: Dərs vəsaiti, I hissə. Bakı, 2017, 368 s.
11. Tağıyev A.H., Aslanzadə İ.A. İnnovasiya menecmenti: Dərs vəsaiti, II hisə. Bakı, 2017, 352 s.
12. Баранчеев В.П. Управление инновациями. М.: Юрайт, 2011, 711 с.
13. Гришин В.В. Управление инновационной деятельностью в условиях модернизации национальной экономики. М.: Дашков и К, 2010, 368с.
14. Кокурин Д.И. Инновационная деятельность. М.: Экзамен, 2001, 576с.
15. Наджафов З.М., ГусейноваА.Д. Формирование портфеля инноваций в Азербайджанской Республике // Информация и инновации, 2008, №1, с. 2-9.
16. Основы инновационного менеджмента: Теория и практика: Уч. пос. / под ред. П.Н.Завлина и др. М.: ОАО НПО Изд-во "Экономика", 2000, 475с.
17. Сборник методических рекомендаций по осуществлению инновационной деятельности и реализации инновационных программ, Минск, 2010, 260 с.
18. Твисс Б. Управление научно-техническими нововведениями. Сокр. пер. с англ. М.: Экономика, 1989, 271с.
19. Фатхутдинов Р.А. Инновационный менеджмент. СПб., Питер, 2006, 448с.

20. Шумпетер Й. Теория экономического развития. М.: Прогресс, 1982, 455с. 155.
21. Шумпетер Й. Творческая активность, инновации-эффект. М., 1989
22. Экономика инноваций / Под ред. В.Я.Горфинкеля. М.: ИНФРА-М, 2009.